# Nizami Gəncəvi yaradıcılığında ideal cəmiyyət problemi

**Üzeyir Qara oğlu Balakişiyev**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Gəncə Dövlət Universitetinin müəllimi*
**Yaqut Şahmalı qızı Quliyeva**
*Gəncə Dövlət Universitetinin müəllimi*
**E-mail:** vahid-o@mail.ru

**Rəyçilər:** f.ü.e.d., prof. S.Y. Hüseynov,
f.ü.f.d., dos. V.A. Ömərov

**Açar sözlər:** Nizami, ideal cəmiyyət, ədalət, hökmdar, İsgəndər, cənnət şəhər, ideal sosializm

**Ключевые слова:** Низами, идеальное общество, справедливость, правитель, Александр, небесный город, идеальный социализм

**Key words:** Nizami, ideal society, justice, ruler, Alexander, paradise city, ideal socialism

Dahi Azərbaycan şairi Nizami Gəncəvi özünün ideal cəmiyyət ideyası ilə Qərb mütəfəkkirlərini və filosoflarını geridə qoymuşdur. Nizami "İsgəndərnamə" poemasının "İqbalnamə" hissəsində özünün ideya-siyasi axtarışlarının zirvəsi olan ideal cəmiyyət təsvir etmişdir. Bu cəmiyyət qəddarlıqdan, tabeçilik və asılılıqdan, zülmdən uzaqdır. Bu cəmiyyət humanist və ədalətlidir. Burada ümumbəşəri xoşbəxtlik hökm sürür, xüsusi mülkiyyət yoxdur.

Nizami "İsgəndənıamə"də feodal-patriarxal cəmiyyətində müşahidə etdiyi sosial-siyasi, əxlaqi nöqsanları kəskin tənqidə məruz qoyaraq, onları hansı vasitələrlə aradan qaldırmağın mümkünlüyü haqqında düşünmüşdür. Mütəfəkkir bunu qarşısına bir məqsəd kimi qoymuş və sanki onun həllinə nail olmuşdur. Dövrünə görədir ki, Nizami öz əsərlərində həmişə ideya məzmunu ilə feodal hökmdarlara təsir göstərmək və onları sosial ədalətə dəvət etmək, bir sözlə, onları kamilləşdirmək istəmişdir. Bu nöqteyi-nəzərdən artıq İsgəndər mütəfəkkirin humanist sosial idealına tamamilə cavab verə bilən səviyyəyə ucalmışdır. Əgər Nüşabə mütəfəkkirin "ədalətli hökmdar" amalının təcəssümüdürsə, İsgəndər artıq "ideal hökmdar" onun ali məqsədinin zirvəsidir. "Ölkələr İsgəndərə şahlıq etmək, xalqlara kömək etmək, ədalət göstərmək" üçün verilmişdir.

Nizaminin sosial ədalət konsepsiyasında insafdan və xeyirxahlıqdan dönməzlik haqq, ədalət yolunda atılan mühüm addım kimi qiymətləndirilir. Onun ideyasına görə, «ədalət yolundan dönməzliyi insanlara adil və ulu Tanrının özü öyrətmişdir.

"Nizami ictimai, fəlsəfi düşüncələrə üstünlük vermiş, ... hökmdar və cəmiyyət, ... elm və din, ... və əxlaq və s. bu kimi çoxlu məsələlərlə əlaqədar dövrünün ən qabaqcıl elmi görüşlərini saf çürük etməyə çalışmışdır" (3, s. 177).

Nizaminin sosial-siyasi və hüquqi görüşlərinin son mərhələsi kimi, mütəfəkkirin sosial ədalətə və ədalətli hökmdara münasibətində həm də demoktarikyönlü dönüş nöqtəsi qismində təzahür edir. Belə ki, bu qeyd olunanlar mütəfəkkirin ideallarını təmin etmir. Nizami ... utopik formada da olsa, artıq ideal cəmiyyət haqqında danışır" (4, s. 36).

Utopik ideyalarda cəmiyyət, dövlət, hüquq, hakimiyyət, siyasət və qanun haqqında hadisələrin təsvirində reallaşması öz zəmanəsi üçün əlçatmaz olan konsepsiyalar formalaşsa da, mütəfəkkirlər siyasi-hüquqi institutların, əmlak ümumiliyinə əsaslanan ictimai quruluşun necə ol-

ması, cəmiyyətdəki haqsızlıqların və sosial bəlaların hansı vasitələrlə aradan qaldırılması, insanlar arasındakı qeyri-bərabərliyin, dövlətdəki zorakılıqların və istibdadın yox edilməsi yolları, qəddar idarəçilik rejimlərinin hansı üsullarla məhv edilməsi və yeni azad, xoşbəxt quruluş yaradılması və s. haqqında problemlərin həllinə səy göstərmişlər.

Aşağı təbəqələrin ədalətli cəmiyyət uğrunda əbədi səylərini əks etdirən utopik ideyalar müxtəlif görüşlərdən və təsəvvürlərdən ibarət olmuşdur. İdeyaları əsasən utopik məzmun daşıyan müxtəlif ideoloji fikir cərəyanları bir-birindən arzu və müdafiə etdikləri gələcək ümumi hakimiyyətin yeganə olması layihəsinə görə fərqlənmişlər. Həmin ideyaları ehtiva olunan prinsiplər də bir-birindən fərqlənmişdir.

Nizami Gəncəvinin ideal cəmiyyət ideyasında "aşağı və xoşbəxt cəmiyyətdə bərabərsizlik, zülm, sosial mübarizə və cinayət yoxdur, onların əvəzinə burada ümumilik, əmin-amanlıq, humanizm, səmimiyyət, qarşılıqlı xeyirxahlıq və qarşılıqlı yardım, düşüncə saflığı, yüksək əxlaqi keyfiyyətlər hökm sürür" (5, s. 118).

Nizami özünün ideal cəmiyyət ideyasını yaradarkən qədim yunan müəlliflərinin sosial utopiyaya dair romanlarından istifadə etmişdir. Professor Camal Mustafayev N. Gəncəvinin ideal cəmiyyət ideyasından bəhs edərkən göstərir ki, Nizami öz təlimində qədim yunanların utopik əsərlərindən istifadə etmişdir. Müəllif yazır: "Nizaminin utopiyası təsdiq edir ki, bu utopiyanı yaradarkən şair qədim yunanların Himalay dağlarından şimalda yerləşən Uttara-Kuru tayfalarının cənnət ölkəsi aşağıdakı hind əfsanələrinə əsaslanmışdır" (5,s. 119). C. Mustafayevin fikrincə, "Tomas Morrun "Utopiyası" da Nizaminin istifadə etdiyi, həmin mənbənin təsiri altında yazılmışdır" (5, s. 119).

Nizaminin ideal cəmiyyət ideyası özündən əvvəlki Şərq, o cümlədən Avropa utopizmi ünsürünün yaratdığı sintezdir. Öz növbəsində Nizami özündən sonrakı utopik ideyaların inkişafına güclü təsir göstərmişdir.

M.Ə. Rəsulzadə N. Gəncəvinin ideal cəmiyyətini "cənnət şəhər" və ya "ədalətli şəhər" adlandırmışdır. Yunanıstana hərəkət edən İskəndər yol üstündə əfsanəvi bir şəhərə rast gəlir. Cənnət kimi şən, məmur və bolluq bir yer. Bir şəhər ki, nə daşdan divarları, nə də ağacla dəmirdən qapıları var... Bir neçə adamı ilə bərabər şəhərə girən İskəndər gördüyü mənzərənin heyranıdır. Ağızlarına qədər dolu ikən dükanların qapılarında kilid yox.

"Gülər üzlü əhali İsgəndəri və yanındakıları hörmət və sevinclə qarşılayırlar, onu bir saraya götürür, izaz (ağırlayır) və ikram edirlər. Padşah gördüyü bu müamilədən həm məmnun, həm də heyrandır. Ev sahibinə sorur:

— Bu güvən, bu qorxusuzluq nədir? Nədən özünüzü qorumaq için heç bir tədbiriniz yox?!... Qapılarınızda kilid, bağlarınızda bağban, sürülərinizdə çoban yox! - bu laqeydliklə özünüzü necə əmniyyətdə sanarsınız?!...

Ədalət şəhəri"nin böyükləri şaha dua edərək böylə cavab verirlər:

— "Bu yerlərdə gördüyün bizlər, əslində zəif, fəqət, dindar adamlarıq, doğruya imrənir, əyridən iyrənirik. Dünyanın qapısını əyriliyin üzünə qapamış və bu aləmdə səlaməti doğruluqda bulmuşuq. Heç bir zaman yalan söyləmərik, Tanrının sevdiyini, yapar, buyuruğuna boyun əyər, kimsəyə zorbalıq etməz, acizlərin əlindən tutarıq. Bizlərdən biri zərər görürsə, onu öz malımıza ortaq edərik. Kimsənin kimsədən çox malı da yox, hər kəs halına görə nemətdədir. Özümüzü arxadaş sayar, başqasının dərdinə sevinmərik. Hırsızdan qorxumuz yox - nə şəhərdə polis, nə köydə bəkçimiz yoxdur. Başqalarından bir şey çalmarıq, bizdən də kimsə bir şey çalmaz. Nə qapıda kilidimiz, nə sürüdə çobanımız vardır. Kiçiklərimizi Allah böyüdür, heyvanlarımızı da qurddan, qaplandan o qorur. Toxum torpağa atar, üst tərəfini tanrıya buraxırıq. Biçim fəsli gəlmədikcə kimsə arpa, buğda əkininə uğramaz. Öz-özünə bitən məhsuldan birə

qarşı 700 alırıq. Nə yaparsaq təvəkkülümüz Allahadır, qorxduğumuz da o, güvəndiyimiz də odur, başqasına sığınmarıq. Bizlərdən birinə başqanlıq nəsib olursa hamımız ona fikirlərimizlə yardım edərik. Kimsəni kötülüyə çəkməz, fitnə yapmaz, qan tökmərik. Bir-birimizin dərdilə dərdlənir, bir-birimizin səadətinə sevinirik. Altuna, gümüşə qiymət verməmərik, bizlərdən heç bir kimsə bunlara ehtiyac göstərməz. Heyvanlar bizdən qaçmazlar, çünki biz onları incitmərik. Ov bizim için bir əyləncə deyildir. Ovdan ancaq ehtiyacımız nisbətində faydalanırıq. Nə öküzlə eşşək kimi çox yeyir, nə də ağzımızı qaparıq. Sıcaq olsun, soyuq olsun yemək süfrəsindən doymadan bir az öncə qalxarıq. Bizlərdən kimsə yaşı keçmədik və vaxtı gəlmədikcə, gənc ölməz. Ölülərimiz için kədərlənmərik, çünki bunun faydasız olduğunu bilirik. Kimsənin arxasından üzünə qarşı söylənməyəcək bir söz söyləmərik. Casusluq nədir bilmərik. Allahın işinə qarışmaz, bu neçin böylə, o, neçin öylə deyə sormarıq. Bizim cəmiyyətdə yalnız bizim əxlaqımızda olanlar yaşaya bilir. Adətdən dışarı çıxanlar, həmən içimizdən atılırlar!” (2, s. 301-302).

Nizami təsvir etdiyi ideal cəmiyyətə, hər şeydən əvvəl, İsgəndərin gözləri ilə baxır. Mütəfəkkir öz qəhrəmanını qeyri-adi və ecazkar aləmə aparmaqla ona sanki xoşbəxt cəmiyyətin nə olduğunu, onu necə qurmağın yollarını öyrədir. Bu isə o qədər sadə, asan deyil. İsgəndər əvvəlcə öyrənməli (bilik əldə etməli) və lazımi zirvəyə (hətta müqəddəslik pilləsinə) ucalmalı, həyati və insani vəzifəsini dərk etməli və yalnız bundan sonra xoş niyyətlərinin nəticəsi ilə üzüzə dayanmalı idi. Məhz buna görə də “İqbalnamə”nin ikinci hissəsində Nizami İsgəndərin inkişafındakı ən yüksək mərhələni - onun peyğəmbərliyini, ölümünü və ideal cəmiyyətlə qarşılaşmasını göstərmişdir. Nəsihətçiliklə səfərnaməçilik, mütəfəkkirin həyatı ilə bağlı faktlarla birlikdə ümumbəşəri ideallarin tərənnümü bu hissədə mürəkkəb bir şəkildə birləşdirilmişdir. İsgəndər dünya hökmdarı və alim olaraq qalır, lakin onun xarakterinə yeni bir keyfiyyət əlavə olunur, o, həm də peyğəmbər olur, Allahın iradəsi ilə dünyanı dolaşaraq yer üzərində yaşayan bütün insanları həqiqət yoluna dəvət edir. Dünyanı dolaşan, Qərbə və Şərqə, Cənuba və Şimala doğru hərəkət edib insanları haqq və ədalət yoluna çağıran İsgəndər bir çox möcüzələrlə qarşılaşır, ... nəhayət, yer üzünün ən nadir “möcüzəsi” olan utopik Xoşbəxtlər ölkəsi ilə qarşılaşır“ (3, s. 179).

Nizaminin təsvir etdiyi xoşbəxt ölkə haqqı ədaləti eşidənlərin cəmiyyətidir.

Nizaminin ideal cəmiyyəti ədalətli, müdrik hökmdarların başçılıq etdiyi dövlətdir. Bu dövlət ağlın qüdrəti ilə idarə olunur. Dövlət işlərinin həyata keçirilməsində başlıca meyar ədalətin tələblərinə əməl olunmasıdır.

Xoşbəxtlər ölkəsində nəinki hökmdarla xalq arasında, ümumiyyətlə, hər hansı zəmində meydana çıxacaq ədavət yoxdur. Belə ədavətin olması nəinki səltənətin, eyni zamanda da bütövlükdə cəmiyyətin, dövlətin sonu demək olardı. Xoşbəxtlər ölkəsinin sakinləri hər hansı ədavətə, münaqişəyə həqarətlə baxan insanlardır. Ədavətə görə onlar, hətta hökmdarın siyasətinə qarşı çıxmaq iqtidarındadır:

“Sosial-siyasi eləcə də utopik görüşlərinin məzmunundan aydın olur ki, Nizami hökmdar ədalətsizliyini kəskin tənqidə məruz qoysa da, hətta bir növ özünüidarənin hökm sürdüyü ideal dövlətdə hökmdar hakimiyyətinin mövcudluğunun tərəfdarı olmuşdur. Mütəfəkkirin qənaətinə görə xalqı yalnız ədalətli və müdrik hökmdar azadlığa və xoşbəxtliyə çatdırsa, habelə onu baş verə bilən sosial-siyasi bəlalardan xilas edə bilər. Nizaminin təsvir etdiyi ideal cəmiyyət özündən əvvəlki utopik nəzəriyyə və təlimlərdə təsvir edilmiş ideal cəmiyyətlərdən bir sıra spesifik xüsusiyyətlərilə fərqlənir. Bununla yanaşı Nizaminin dövlət haqqında görüşləri qədim yunan mütəfəkkirlərinin bu problemə dair ideyaları ilə bəzi cəhətlərinə görə üst-üstə düşür. Həmçinin Platonun, Aristotelin və Nizaminin dövlətin mənşəyi haqqında əsas məsələyə dair

fikirləri eyni səciyyə daşıyır. Lakin qeyd etmək zəruridir ki, dini ideologiyanın təzyiqinə baxmayaraq, Nizami dini təlimin ehkamlarının dair çərçivəsilə məhdudlaşmamışdır. O, cəmiyyətin dəyişdirilməsi və yenidən qurulması yollarının axtarışında elmi təfəkkür qüdrətinə, insanın idrak fəaliyyətinə və həyati reallıqlara möhkəm inam nümayiş etdirmişdir. Mütəfəkkirin poetik dillə təsvir etdiyi ideal quruluş özündə pisliklərin inkarının əks etdirən quruluşdur. Hətta Allah da rəhm və mərhəmətini bu quruluşdan əsirgəməmişdir" (1, s. 126).

Nizaminin ideal adlandırdığı cəmiyyət yaxşılıq təməlik üzərində qurulmuşdur. Mütəfəkkirin təsəvvüründə bu cəmiyyətin həmişə yaşarlığı da məhz onun yaxşılıq dəyərlərinə söykənməsindədir. Əks təqdirdə insanlar belə bir cəmiyyət yaratmazdılar.

Dövlət haqqında təlimlərin təhlili göstərir ki, Platonun, Aristotelin və Nizaminin mövqelərində fərqli cəhətlər də vardır. Xüsusilə də Platonun ideal dövlətə dair ideyaları ilə müqayisə nəticəsində Nizaminin analoji konsepsiyasının daha demokratik olması nəzərə çarpır. Məsələn, Nizaminin ideal cəmiyyəti insanların ayrı-ayrı sosial qruplara, yaxud təbəqələrə bölgüsünün olmadığı dövlət cəmiyyətdir. Mütəfəkkirin layihəsini verdiyi ideal dövlət sakininin dilindən də məhz bu fikir səslənir.

"Bundan başqa, Nizaminin utopik cəmiyyəti istismarı və köləliyi, xüsusi mülkiyyəti tanımır. Burada sosial-iqtisadi cəhətdən də hamı bərabərdir. Platonun ideal dövlətində isə insanlar təbəqələrə (hökmdarlar, hərbçilər, istehsalçılar) bölünür. Platon ideal dövləti ən yaxşıların idarə etdiyi dövlət hesab edirdi. Nizaminin ideal cəmiyyətində isə siyasi hakimiyyətin, ümumiyyətlə, adı çəkilmir. Belə təsəvvür yaranır ki, onun ideal cəmiyyəti ictimai özünüidarənin bərqərar olduğu quruluşdur. Bunun özü də Nizami utopiyasının demokratikliyini əks etdirir. Bundan əlavə, əgər Aristotel müharibələri qul "ovu" sayırdısa, Nizami, ümumiyyətlə, müharibələrin əleyhinə idi. Nizaminin ideal dövlətində elə bir ədalət hökm sürür ki, onun olmaması cəmiyyətin bərbad vəziyyətə düşməsinə səbəb olardı. Bu ədalət hökmdarın verdiyi fərman və hökmlərlə qorunur. Hökmdar ədaləti, cəmiyyətin idarə olunmasında tətbiq edilən ədalətli qanunlar meydana çıxa bilən hər cür zorakılığın qarşısını alır, törədilən şər əməllər dərhal cəzalandırılır. Əks təqdirdə cəmiyyət həyatının normal axarı pozular, ölkədə insaf və ədalətdən, fəzilətli davranışdan və xeyirxahlıqdan heç bir nişanə qalmazdı" (1, s. 127).

Nizaminin ideal dövlət layihəsində cəmiyyət üzvlərinin yüksək, mənəviyyatı, dinpərvərliyi və şəxsi tərbiyəsi ədalətin tələblərini qorumağa və onlara əməl etməyə kömək edir. Cəmiyyətdə qüvvədə olan əxlaq normaları elə köklənmişdir ki, onlar hər cür qeyri-əxlaqiliyi və mənəviyyatsızlığı rədd edir, ideal ölkənin sakinləri rahat və əmin-amanlıqda yaşamaq üçün, artıq əzab-əziyyətə düşməməkdən ötrü düzlüklə ömür sürürlər. Əslində bu dövlətin qanunları elə ahəngdarlıqla işləyir ki, xətalı işlərə nəinki yol vermir, onları yaxına belə buraxmır. Böyük mütəfəkkirin layihəsini verdiyi nümunəvi ölkənin sakinləri insanlara mənəvi, yaxud ziyan vurmaqdan uzaqdırlar. Bir nəfərin təsadüf nəticəsində vurduğu belə ziyan hamılıqla ödənilir. Deməli, ideal ölkənin sakinləri nəinki özünün, həm də mənsub olduğu cəmiyyətin məsuliyyətini dərindən hiss edən nümunəvi insanlardır. Müasir dövr üçün də son dərəcə aktual olan bu müddəanı Nizami hələ XII yüzillikdə irəli sürmüşdü. Hüquqların təminatına və bərpasına dair ideya irəli sürməklə Nizami nəinki öz vətənində, eləcə də bütün müsəlman Şərqində öz dövrünü xeyli qabaqlamış birinci mütəfəkkir idi.

Sakinləri xeyirxah, xoşniyyət olan ideal ölkədə başqalarının fitnəkarlığa, zorakılığa təhrik etmək, şər əməllər törətməyə vadar etmək, yaxud başqalarının şəxsi işinə qarışmaq, malını və mülkünü əlindən almaq adətləri yoxdur. Buna ilk növbədə cəmiyyətdə qüvvədə olan qayda-qanunlar, əxlaq normaları və insanların zəngin mənəviyyatı yol vermir. Qan tökmək, intiqam almaq və digər bədxah əməllərlə məşğul olmaq ideal cəmiyyət sakinlərinin təbiətinə yaddır.

Nizaminin ideal dövlət layihəsində cəmiyyətdə özünə möhkəm yer almış cinayətkarlıq elementləri demək olar ki, yox dərəcəsindədir. Bu əsrarəngiz, fantastik cazibədarlığa malik xoşbəxt cəmiyyətdə qətl və qarətdən, möhtəkirlikdən və digər cinayətkar əməllərdən əsər-əlamət yoxdur. Ölkədə mövcud olan ədalət qanunları, əxlaq normaları rəzil və qəbahətli əməllərin qarşısına möhkəm bir sədd çəkmişdir. Bu cəmiyyət qatil, dələduz və xətakar kimi fərdləri tanımır, belələrinin pis əməlləri yolverilməz, bağışlanmaz hesab olunur. "Canini, oğrunu heç vaxt bağışlama" – deyən humanist mütəfəkkirin təsvir etdiyi ideal cəmiyyətə qonşu ölkələrin də cinayətkar elementləri cəsarət edib əl uzada bilməz:

"Göründüyü kimi, ideal cəmiyyətin ədalətli təməli, yüksək əxlaqiliyi hər hansı natəmizliyi qəbul etmir. İdeal cəmiyyət layihəsindən doğan ideyaya görə Xoşbəxtlər ölkəsində qatillik və oğurluq ən ağır əməllər hesab olunur. Ona görə də digər qanunsuz əməllərin bağışlanmaq ehtimalı böyükdür. Bu ölkənin qanunlarına görə cinayət üstündə verilən ən ağır cəza ölkədən qovmaqdır. Nizaminin ideal cəmiyyət haqqında utopik ideyaları fantastik uzaqgörənliyin məhsuludur. Mütəfəkkirin sosial- siyasi görüşlərinin bu hissəsi Yaxın və Orta Şərqin sosial utopiya ilə bağlı fikir tarixini daha da zənginləşdirmiş, ideal cəmiyyətə dair ideyaların Şərqin hüudlarını aşaraq Avropanın sosial-siyasi fikrində analoji ideyaların formalaşmasına təsir göstərmişdir" (1, s. 129-130).

M.Ə. Rəsulzadə "Azərbaycan şairi Nizami" monoqrafiyasında Sovet şərqsünası Bertelsin Nizaminin ideal cəmiyyətini "ideal sosializm" kimi səciyyələndirməsini və onun Quzeydə - SSRİ-də yerləşdirildiyi fikrini kəskin tənqid etmişdir. Rəsulzadə Bertelsin coğrafi məkanı səhv göstərdiyini də diqqətə çatdırmışdır:

"Bir kərə, "Cənnət şəhər" heç də SSRİ-nin bulunduğu bir yerdə deyildir. Çünki Nizami İskəndərin bu şəhərdən ayrılaraq Yunanıstana doğru aldığı yolun yönünü göstərmişdir. Cızılan bu yönə görə, İskəndər "qurudan-dənizdən keçmiş və bir çox yol aldıqdan sonra Kirmandan Kirmanşaha, oradan Babilə, Babildən də Şəhrizura" gəlmişdir. Bu qeyd və bu açıqlıq varkən "Cənnət şəhərin" qızıl Moskva olduğunu iddia etmək coğrafiya bilgisinə aykırıdır!... Şairin fantaziyasında canlanan bu ideal şəhərin yerini təyin etmək mütləq lazımsa, onu Qırğızla [Xırxız] ilgili bir ölkədə aramalıdır. Hər ideal şeyi türklüyə bağlayan şair "ideal şəhəri"ni dəxi, Türküstanda görmüşdür. Bilxassə, əski yunan qaynaqlarında da Türküstanda şəxsi mülkiyyət bilməyən cəmiyyətlərdən bəhs vardır" (2, s. 304).

M.Ə.Rəsulzadə təkcə Qafqazın məkanca deyil, "Cənnət şəhəri" və "sovet cənnəti"nin kəskin fərqləndiyindən xüsusi qeyd edir:

"Nizaminin "Cənnət şəhər"i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanır, ötəkisi Allahı rədd edər. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük propaqanda silahıdır. Birincidə sevgi əsas, ikincidə isə nifrət hakimdir. Birincidə təsanüd əsil ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə əmniyyətdə ikən, ikincidə insanlar belə daima ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci hırsızlıq nədir bilməz, ikincidə hakim olan hırsızlıqdır... Birincidə polis yox, ikinci ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hər kəs casusdur. Birinci silahsız və barışçıdır, ikinci başdan-dırnağa qədər silahlıdır. Birinci fitnə nədir bilməz, ikinci bütün dünyanı tutuşduracaq bir fitnə yuvasıdır. Sözün özü: Dini əxlaqa və ictimai təsanüdə dayanan "Nizami sosializmi"lə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı "rus sosializmi"nin bir-birinə bənzər heç bir tərəfi yoxdur!... (2, s. 304-305)

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, "dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin

bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilib. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib. 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti nəzərə alınaraq, 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan edilib" (6).

Beləliklə, Nizami Gəncəvi yaradıcılığında ideal cəmiyyət ideyası onun "İsgəndərnamə" poemasının "İqbalnamə" hissəsində öz əksini tapmış və Qərbdən əvvəl Şərqdə utopik ideyaların təşəkkülündə və inkişafında həlledici rol oynamışdır.

**Məqalənin aktuallığı.** Nizami Gəncəvinin yaradıcılığında qədim fəlsəfi irsində ideal cəmiyyət fenomenini, onun tarixilik və müasirlik baxımından aktuallığını üzə çıxarmaq ciddi elmi-nəzəri əhəmiyyət kəsb edir. Məqalənin aktuallığı ondadır ki, Nizaminin ideal cəmiyyət ideyası təkcə ictimai fikir tarixində deyil, müasir dövrdə də dəyərini qoruyub saxlamaqdadır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondadır ki, Nizami Gəncəvinin yaradıcılığındakı ideal cəmiyyət fenomeni tarixilik və müasirlik baxımından təhlil predmeti kimi götürülmüşdür.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat Qərb, Şərq və dünya ədəbiyyatında, qədim fəlsəfi fikir xəzinəsinə dəyərli bir töhfə kimi praktiki əhəmiyyətə malikdir. Materialdan Nizamişünaslıq və klassik ədəbiyyatın digər sahələrinin tədrisi zamanı da istifadə oluna bilər.

## Ədəbiyyat

1. Quliyev A. *Azərbaycanın ictimai-siyasi fikrində* sosial *ədalət* ideyası: (monoqrafiya) Bakı: Səda, 2008, 352 s.

2. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Təknur, 2011, -520 s.

3. Səfərli Ə., Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 2008, 696 s.

4. *Дадашзаде М. А. История азербайджанской литературы* (с древнейших времен до середины 70-х гг. XX в.). Баку: Маариф, 1987. 178 с.

5. Мустафаев Дж. Природа социальных утопий стран Ближнего Востока // Вопросы философии, 1968, № 8, с. 116-120

6. 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi ili" elan olunub // https:// apa. az/az/ xeber/ daxili-siyaset/2021-ci-il-Azrbaycanda-Nizami-Gncvi-Ili-elan-olunub-colorred SRNCA Mcolor-622943 (Baxılıb: 05.01.2021).

**У.Г. Балакишиев, Я.Ш. Гулиева**

## Проблема идеального общества в творчестве Низами Гянджеви

### Резюме

В статье исследован феномен идеального общества в творчестве Низами Гянджеви.

Как уже отмечалось, в "Игбалноме" части поэмы "Александра Македонского" идеализированный правитель Александр Македонский встречает "счастливое общество" по возвращении в Грецию. Это общество по своей структуре представляет собой государство, отличающееся общественными отношениями, в котором царит справедливость, взаимопомощь, во главе которого стоит мудрый правитель. Идеальное общество Низами, представленное М.А.Расулзаде как "Райский город", "Справедливый город", также охарактеризовано советскими исследователями как "Советский рай", "Идеальный социализм". М.А.Расулзаде опроверг безосновательные идеи советских исследователей.

**U.G. Balakishiyev, Y.Sh. Quliyeva**

## The problem of an ıdeal socıety ın the work of Nızamı Ganjavı

### Summary

The article examines the phenomenon of ideal society in Nizami Ganjavi's work.

As noted, in the "Iqbalname" section of the poem "Alexander", when Alexander of Macedon returned to Greece, he came across a "happy society". This society is a state whose structure is distinguished by public relations, justice, mutual assistance reigns, headed by a wise ruler. The ideal society of M.A.Rasulzadeh's "Paradise city" and "Fair city" is characterized by Soviet researchers as "Soviet Paradise" and "Ideal socialism". M.A. Rasulzade has subsided unreasonable ideas of Soviet researchers.

**Redaksiyaya daxil olub:** 27.09.2021